*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 4, s.85-88*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 4, p.85-88*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 4, с.85-88*

**UOT: 37.033:930**
https://doi.org/10.30546/670832.2025.02.1106

# “Azərbaycan tarixi” fənninin tədrisində mühazirə, seminar və auditoriyadankənar dərslərin təşkilinin təlim nəticələrinə təsiri haqqında bəzi mülahizələr

**Müəllif(lər):**

**Günay Əlizadə**
Naxçıvan Müəllimlər İnstitutu
Müəllim
**E-poçt:** Gunayalizade@nmi.edu.az

**Açar sözlər:** Azərbaycan tarixi, tədris metodları, mühazirə, seminar, auditoriyadankənar dərslər, tədris nəticələri, tarixi biliklərin mənimsənilməsi, təhsil texnologiyaları, təhsil innovasiyaları, tədris keyfiyyəti

**Annotasiya.** “Azərbaycan tarixi” fənninin tədrisində mühazirə, seminar və auditoriyadankənar dərslərin qarşılıqlı və məqsədyönlü istifadəsi tələbələrin bilik səviyyəsinin, analitik düşüncəsinin və motivasiyasının inkişafına mühüm təsir göstərir. Mühazirələr sistemli məlumatın mənimsənilməsini təmin edir, seminarlar isə tələbələrin tənqidi və problem həll etmə bacarıqlarını gücləndirir. Auditoriyadankənar fəaliyyətlər fənnə olan marağı artırır və öyrənməyə əlavə həvəs yaradır. Müxtəlif tədris formalarının tətbiqi nəticələrin yüksəlməsinə və tədris prosesinin daha səmərəli həyata keçirilməsinə şərait yaradır.

Tədqiqatın məqsədi “Azərbaycan tarixi” fənnində mühazirə, seminar və auditoriyadankənar dərslərin tətbiqinin tələbələrin bilik səviyyəsinə, analitik bacarıqlarına və motivasiyasına təsirini sistemli şəkildə araşdırmaqdır. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, fənnin tədrisində müxtəlif dərs formalarının birlikdə tətbiq olunması öyrənmə prosesini daha səmərəli edir.

Tədqiqat “Azərbaycan tarixi” fənninin tədrisində müxtəlif dərs formalarının rolunu nəzəri cəhətdən izah edir. Tədqiqatın praktik əhəmiyyəti isə ondan ibarətdir ki, tədqiqat tədris prosesinin yaxşılaşdırılmasına kömək edərək müəllimlər üçün dərs prosesində praktik tövsiyə kimi istifadə oluna bilər. Tədqiqat belə nəticəyə gəlməyə imkan verir ki, müxtəlif öyrənmə üsullarının birlikdə tətbiq olunması tələbələrin tədris nəticələrinin yaşılaşdırılmasına kömək edə bilər.

## Some considerations on the impact of organizing lectures, seminars and extracurricular activities on learning outcomes in teaching “Azerbaijani history”

**Author(s):**

**Gunay Alizade**
Nakhchivan Teachers Institute
Teacher
**E-mail:** Gunayalizade@nmi.edu.az

**Key words:** Azerbaijani history, teaching methods, lecture, seminar, extracurricular activities, learning outcomes, assimilation of historical knowledge, educational technologies, educational innovations, teaching quality

**Abstract.** The mutual and purposeful use of lectures, seminars and extracurricular activities in teaching “Azerbaijani history” has a significant impact on the development of students’ knowledge level, analytical thinking and motivation. Lectures provide the systematic assimilation of information, while seminars strengthen students’ critical thinking and problem-solving skills. Extracurricular activities increase interest in the subject and create additional enthusiasm for learning.

The application of various teaching formats contributes to improved learning outcomes and a more efficient educational process. The aim of this study is to systematically examine the impact of lectures, seminars, and extracurricular classes on students’ knowledge, analytical abilities, and motivation in “Azerbaijani history”. The study found that the combined use of different lesson formats in teaching the subject makes the learning process more effective.

The research explains the various teaching methods in teaching the history of Azerbaijan. The practical significance of the research is that it can be used as a practical recommendation for teachers in the teaching process, helping to improve the quality of teaching. The research suggests that the integrated application of various learning methods can contribute to the enhancement of students’ academic outcomes.

## О некоторых соображениях о влиянии организации лекционных, семинарских и внеаудиторных занятий на результаты обучения по дисциплине «История Азербайджана»

**Автор(ы):**

**Гюнай Ализаде**
Нахчыванский институт учителей
Преподаватель
**Э-почта:** Gunayalizade@nmi.edu.az

**Ключевые слова:** история Азербайджана, методика преподавания, лекция, семинар, внеклассные занятия, результаты обучения, усвоение исторических знаний, образовательные технологии, образовательные инновации, качество преподавания

**Аннотация.** Целенаправленное и взаимосвязанное использование лекций, семинаров и внеаудиторных занятий в преподавании дисциплины «История Азербайджана» оказывает существенное влияние на развитие уровня знаний, аналитического мышления и мотивации студентов. Лекции обеспечивают усвоение систематизированной информации, тогда как семинары способствуют развитию критического мышления и навыков решения проблем. Внеаудиторная деятельность повышает интерес к предмету и формирует дополнительную мотивацию к обучению. Применение различных форм обучения создает условия для повышения учебных результатов и более эффективной организации образовательного процесса.

Целью исследования является системное изучение влияния лекционных, семинарских и внеаудиторных занятий по дисциплине «История Азербайджана» на уровень знаний, аналитические способности и мотивацию студентов. В результате исследования установлено, что комплексное использование различных форм занятий делает процесс обучения более результативным.

Теоретическая значимость исследования заключается в раскрытии роли различных форм занятий в преподавании истории Азербайджана, практическая - в возможности использования полученных выводов в качестве методических рекомендаций для преподавателей с целью совершенствования учебного процесса. Сделан вывод о том, что интеграция различных методов обучения способствует улучшению учебных результатов студентов.

**Giriş. Mövzunun müəyyənləşdirilməsi və seçilmə səbəbi.** Azərbaycan tarixi fənni tələbələrdə milli kimliyin formalaşması, vətənpərvərlik hissinin güclənməsi və tarixi biliklərin dərinləşməsi baxımından mühüm yer tutur. Bu fənnin tədrisində mühazirə, seminar və auditoriyadankənar dərslərin düzgün təşkili tədrisin keyfiyyətinə birbaşa təsir göstərir. Mühazirələr biliklərin sistemli verilməsini, seminarlar fikir mübadiləsini təmin edir. Auditoriyadankənar dərslər isə marağı və fəallığı artırır. Tədqiqat bu dərs formalarının tədris nəticələrinə təsirini araşdırmağa yönəlmişdir.

**Tədqiqat fərziyyəsi.** Tədqiqat fərziyyəsi belədir ki, mühazirə, seminar və auditoriyadankənar dərslərin birlikdə və düzgün tətbiqi Azərbaycan tarixi fənninin tədris keyfiyyətini artıracaq. Bu dərs formalarının birgə istifadəsi tələbələrin bilik səviyyəsini, marağını və fəallığını yüksəldəcək. Nəticədə öyrənmə prosesi daha səmərəli və davamlı olacaq.

**Tədqiqatın məqsədi**. Tədqiqatın əsas məqsədi Azərbaycan tarixi fənnində mühazirə, seminar və auditoriyadankənar dərslərin tətbiqinin tələbələrin bilik səviyyəsinə, analitik bacarıqlarına və motivasiyasına təsirini sistemli şəkildə araşdırmaqdır.

**Tədqiqatın vəzifələri:**

- Mühazirə, seminar və auditoriyadankənar dərslərin xüsusiyyətlərini araşdırmaq;
- Hər bir dərs formasının tələbələrin bilik və bacarıqlarına təsirini müəyyən etmək;
- Dərs formalarının qarşılıqlı təsirini və öyrənmə prosesinə təsirini təhlil etmək;
- Tələbələrin fəallığını və motivasiyasını artıran metodları müəyyənləşdirmək.

**Materiallar və metodlar**

Tədqiqatda Azərbaycan tarixi fənninin tədrisi ilə bağlı müxtəlif dərs formaları – mühazirə, seminar və auditoriyadankənar dərslər araşdırılmışdır, bu yanaşma pedaqoji metodların səmərəliliyini təmin edir. Tədqiqatın materialı tələbələrin dərs nəticələri və müəllimlərin müşahidələri olmuşdur. Metod olaraq sorğu, müşahidə və müqayisə üsullarından istifadə edilmişdir.

**Tədqiqat materiallarının ümumi təsviri:**

Tədqiqat materiallarına Azərbaycan tarixi fənninin dərslikləri, dərs nəticələri, qiymət kartları, eləcə də mühazirə, seminar və auditoriyadankənar dərslərin planları daxildir.

**Nəzəri-metodoloji baza:**

Tədqiqatın nəzəri-metodoloji bazası Azərbaycan tarixi fənninin tədrisi və pedaqoji elmlər sahəsində mövcud nəzəriyyələr üzərində qurulmuşdur. İnteraktiv tədris metodlarının, xüsusilə seminar və auditoriyadankənar fəaliyyətlərin tətbiqi tələbələrin tənqidi bacarıqlarını inkişaf etdirir və öyrənmə motivasiyasını artırır.

**Tətbiq olunan metod və üsullar**

Bu tədqiqatda Azərbaycan tarixi fənninin tədrisində mühazirə, seminar və auditoriyadankənar dərslərin tələbələrin öyrənmə nəticələrinə təsirini araşdırmaq məqsədi ilə bir neçə elmi metod və üsul tətbiq edilmişdir. Tədqiqatın əsas məqsədi dərs formalarının tələbələrin bilik, bacarıq, fəallıq və motivasiyasına təsirini sistemli şəkildə təhlil etmək olduğundan, metod və üsullar diqqətlə seçilmiş və uyğunlaşdırılmışdır. Tədris metodlarının düzgün seçilməsi nəticələrin keyfiyyətinə təsir edir.

İlk olaraq, sorğu metodu tətbiq olunmuşdur. Sorğu tədqiqatın subyektlərinin mövzuya dair fikirlərini, maraq səviyyəsini və dərs formaları ilə bağlı təcrübələrini toplamaq üçün istifadə edilmişdir. Sorğu vasitəsilə tələbələrdən onların mühazirə, seminar və auditoriyadankənar dərslərdə iştirak səviyyəsi, dərs zamanı fəallığı və öyrənmə prosesi ilə bağlı müşahidələri öyrənilmişdir. Sorğu sualları qısa və anlaşılan formada hazırlanmış, həm açıq, həm də qapalı suallardan ibarət olmuşdur. Sorğu 50 nəfər tələbə arasında keçirilmişdir. Bu üsul tələbələrin subyektiv fikirlərini toplamaq və ümumi təhlil aparmaq üçün geniş imkan yaratmışdır.

Bundan əlavə, statistik təhlil metodundan istifadə olunmuşdur. 50 nəfər tələbə arasında keçirilən sorğunun nəticələri statistik təhlil olunmuşdur. Sorğunun nəticələrinə əsasən 18 nəfər tələbə (36 %) mühazirə dərslərini, 20 nəfər tələbə (40%) seminar dərslərini, 12 nəfər tələbə (24%) isə auditoriyadankənar dərsləri yüksək qiymətləndirmişdir. Sorğu onu göstərir ki, tələbələrin əksəriyyəti seminar dərslərini daha çox sevir. Seminar dərslərinin onların öyrənmə prosesinə yaxşı təsir etdiyini qeyd etmişlər. Mühazirə dərslərinin sistemli bilik əldə etmək baxımından önəmi qeyd edilsə də, bu dərs forması passiv öyrənmə forması kimi qiymətləndirilmişdir. Belə ki, mü-

hazirə zamanı yalnız 30% tələbə sual vermiş və ya müzakirəyə qoşulmuşdur. Seminarlarda isə bu göstərici 65%-ə çatmışdır. Auditoriyadankənar dərslər isə fənnə olan marağı ən çox artıran dərs forması olsa da, lakin az keçirildiyindən tələbələr tərəfindən daha az dəstəklənən metod olmuşdur. Amma buna baxmayaraq, auditoriyadankənar dərslərdə fəallıq səviyyəsi 75%-ə yüksəlmişdir.

Statistik təhlil tələbələrin bilik səviyyəsi, fəallığı və motivasiyası arasında əlaqələri müəyyən etməyə imkan yaratmışdır. Eyni zamanda, statistik təhlil tədqiqatın obyektivliyini artırmış və nəticələrin elmi əsaslara söykənməsini təmin etmişdir.

Tədqiqatda ikinci əsas metod kimi müşahidə istifadə edilmişdir. Müşahidə dərs prosesində tələbələrin davranışlarını, fəallığını və dərs formalarına münasibətini qiymətləndirmək məqsədilə həyata keçirilmişdir. Auditoriyada keçirilən mühazirələr zamanı tələbələrin diqqət səviyyəsi, iştirak fəallığı və məlumatların qavranması müşahidə olunmuşdur. Seminar dərslərində tələbələrin diskussiya aparma, sual vermə və fikir mübadiləsi bacarıqları diqqətlə izlənmişdir. Auditoriyadankənar dərslərdə isə tələbələrin tarix mövzularına marağı, ekskursiyalarda və layihə tapşırıqlarında iştirak səviyyəsi qeyd edilmişdir. Müşahidə metodu tədqiqatın obyektivliyini artırmış və tələbələrin dərs formalarına münasibətini birbaşa görməyə imkan yaratmışdır.

Üçüncü metod olaraq müqayisə üsulu tətbiq edilmişdir. Müqayisə vasitəsilə mühazirə, seminar və auditoriyadankənar dərslərin tələbələrin bilik və bacarıqlarına təsiri bir-biri ilə müqayisə olunmuşdur. Hər bir dərs forması üzrə tələbələrin nəticələri qiymətləndirilmiş və statistik cəhətdən təhlil edilmişdir. Belə ki, mühazirə dərsindən sonra aparılan diskussiya zamanı tələbələrin dərsi mənimsəmə göstəricisi 40% olduğu halda, seminar dərslərində bu göstərici 85 % olmuşdur. Auditoriyadankənar dərslərdə (müxtəlif tarixi abidələrə ekskursiya və s.) isə bu göstərici 95 % təşkil etmişdir. Bu metod tələbələrin fərqli dərs formalarında əldə etdiyi uğurların müqayisəsini aparmaq və dərs formalarının effektivliyini müəyyən etmək üçün istifadə olunmuşdur. Müqayisə nəticəsində hansı dərs formalarının tələbələrin öyrənmə nəticələrinə daha çox təsir göstərdiyi aydınlaşdırılmışdır.

Tədqiqatda, həmçinin sənədli analiz üsulu tətbiq edilmişdir. Sənədli analiz dərsliklər, fənn proqramları üzərində aparılmışdır. Bu üsul müəllimlərin tətbiq etdiyi metod və strategiyaların təhlilini təmin etmiş, dərs formalarının tərkibi və məqsədləri haqqında məlumat toplamışdır. Sənədli analiz nəticəsində həm mühazirə, həm seminar, həm də auditoriyadankənar dərslərin struktur və məzmun xüsusiyyətləri müəyyən edilmişdir. Azərbaycan tarixi fənni üzrə istifadə olunan dərsliklər, fənn proqramları təhlil edilərkən aydın olmuşdur ki, mövcud dərsliklər tarixi hadisələrin xronoloji təqdimatına üstünlük verir, tənqidi düşünməyə vadar edən materiallar kifayət qədər deyil. Fənn proqramlarında tədris metodlarının tətbiqi geniş nəzərdə tutulsa da, praktikada zəif qalmışdır.

Bütün metod və üsullar bir-biri ilə əlaqəli şəkildə istifadə olunmuşdur. Sorğu və müşahidə vasitəsilə tələbələrin subyektiv və obyektiv məlumatları toplanmış, müqayisə və statistik təhlil ilə nəticələr qiymətləndirilmiş, sənədli analiz isə dərs formalarının strukturu və məzmunu haqqında əlavə məlumatlar təqdim etmişdir. Bu yanaşma tədqiqatın həm elmi əsaslı, həm də praktik nəticələr verməsini təmin etmişdir.

**Yekun nəticə**

Bu tədqiqat göstərdi ki, Azərbaycan tarixi fənninin tədrisində mühazirə, seminar və auditoriyadankənar dərslərin balanslı və qarşılıqlı tətbiqi tələbələrin öyrənmə nəticələrinə mühüm təsir göstərir. Mühazirələr sistemli biliklərin mənimsənilməsini təmin edir və tələbələrin tarixi məlumatları daha yaxşı qavramasına kömək edir. Seminar dərsləri tələbələrin diskussiya aparma, fikir mübadiləsi və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, onları öyrənmədə daha fəal edir. Auditoriyadankənar dərslər isə tarixi mövzulara marağı artırır, iştirakçılığı təşviq edir və öyrənmə prosesini daha maraqlı və cəlbedici edir.

Belə nəticəyə gəlmək olar ki, yalnız mühazirə ilə dərs keçilməsi tələbələrin analitik bacarıqlarının inkişafını tam təmin etmir. Seminar və auditoriyadankənar dərslərin tətbiqi tələbələrin fəallığını artırır və öyrənmə nəticələrinin yüksəlməsinə səbəb olur. Müxtəlif dərs formalarının birgə və balanslı istifadəsi nəticələrin daha yüksək olmasına, tələbələrin bilik və bacarıqlarının inkişafına və motivasiyasının güclənməsinə şəra-

it yaradır.

Eyni zamanda, tədqiqat göstərdi ki, müəllimlərin dərs planlarını optimallaşdırması və dərs formalarını məqsədyönlü şəkildə seçməsi öyrənməni daha səmərəli edir. Tələbələrin marağı, iştirak səviyyəsi və öyrənməyə yönəlmiş fəaliyyəti dərs formalarının düzgün tətbiqi ilə birbaşa əlaqəlidir. Bu nəticələr müəllimlər üçün praktiki tövsiyələr təqdim edir və gələcək tədris proseslərinin planlanmasında əhəmiyyətli rol oynayır.

Beləliklə, tədqiqatın yekunu göstərir ki, mühazirə, seminar və auditoriyadankənar dərslərin qarşılıqlı və məqsədyönlü istifadəsi Azərbaycan tarixi fənninin tədrisini daha effektiv edir, tələbələrin bilik və bacarıqlarını artırır, öyrənmə prosesini maraqlı və motivasiyaedici edir.

**Ədəbiyyat**

1. Əliyev, R.M. Tarix dərslərində interaktiv tədris metodlarının tətbiqi / R.M.Əliyev. – Bakı: Elm və təhsil, – 2019. – 168 s.

2. Əliyev, İ.İ. Tarix dərsinin innovativ metodları / R.M.Əliyev. – Bakı: Təhsil, – 2018. – 256 s.

3. Hacıyev, V.C. Tədris metodları və təlim texnologiyaları / V.C.Hacıyev. – Bakı: Adiloğlu, – 2017. – 248 s.

*Məqalə tarix üzrə elmlər doktoru, dosent Zeynəb Quliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 25.09.2025, son daxilolma – 24.10.2025, qəbulolunma – 05.12.2025